# Kəpənək ovu üstə...



Vaqif Nəsib
Sarıhüseyinoğlu

### Qəmli mənzərəm

Üç alma düşməmiş
nağılıma, dastanıma.
Əlimdə bel yenə
Yollanıram bostanıma
Son taqətlə, hərarətlə
Yer şumlayır, belləyirəm,
Axır toxumları səpib
Dünyaya əl yelləyirəm.
Bir bostanın qucağında,
Ömrün bəyaz bucağında
Közərirəm, alışıram
Sonsuzluğuma uçmağa
Alışmağa çalışıram.
Bir bostanda bir Nəsibin
Zaman bükmədə belini
Və itirmədə belinin,-
Yəni alər baş əydiyi
Qələm süngüsünü.
Bir azdan əl uzadıb
Salam verməyə tapmayacaqsınız
Bir kənd tütüngüsünün.

### İki Vaqifə bir iki kəlmə

Atların Vaqif Səmədoğlunu
Atıb kəməndini
göyün yeddi qatından
qədər saldı atından.
Bir ömür tilovlandı
nakam kişnərtilərdə
beləcə cilovlandı.
Daha necə görəsiniz,-
Lilləndi bir atın və atlının
köhlən gözü
Birdə necə eşidəsiniz.
Lalland bir şeir qanatlının
al dili,
bal sözü.
Nə yaxşı istədiyi kimi özü
Yarı öldü,-
yarısını bir məzar
başladı saxlamağa
yarısı, üz ağı,
Sözdən ağı şeirləri
Başladı Vurğun vurğununa
ağlamağa...
İtlərin Vaqif Nəsibi
Baxıb göyün yeddi qatına
başını buladı...
Bu itkiyə əlindən və dilindən
gələn qədər uladı.
Qalıb həlim və zalım dünyada
Yada saldı adaşını
dönə-dönə yada.
Heyif eşidə bilmirsiniz
Şairlərə harınlar hırıldayır.
və görə bilmirsiniz
Vaqif Nəsib bir küncdə
dünyaya mırıldayır.

### Kəpənək ovu üstə...

Hər yaz qanadlanmış çiçəklər,-
yəni kəpənəklər
çatmaq,
tutmaq istədiyimiz
alabəzək arzularımız,
körpələr əlləri
kəpənək tutanlarıyla
başlayırlar qovha-qova,
Mirzə Babayevlər sərgiləriylə
Çıxırlar ovuna...
hər yaz
ömrü az arzulular,
mələrtisi lal, eşişidiləm, quzular
ovuna-ovuna,
düşür kəpənək ovuna.
Tutulmayan kəpənəklər
arzuları kələyir
Arxalarınca bir mərəkə
mələdikcə mələyir...

### Leysan qurbanlarına

Düşdük dünya leysanına
Elə hey suyumuz süzüldü.
Nə yaxşı əzab damcıları
Sonralar misramıza düzüldü.

Nə yaxı leysanlar sonrası,
(tikanlı insanlar sonrası).
Özümüzü badə qonşuluğuna
Çatdırdıq bir təhər.
Nə yaxşı suyu süzülə-süzülə
(iynələrdən üzülə-üzülə)
Qurutmaq istədi özünə
(qərtləməyə çalışdı yuvasının
gözünü)
Vaqif Nəsib-Kələntərli Kələntər.
Leysanların ucbatından
həm araq, çaxır tuluğu
etdik bu canı,
həm də Nəsibin və Kələntərin
söz dəyirmanı.
Olduq bu kar, kor dünyanın
Baxtdan, kar kor oölu,
Səssiz nəğmədə oxuduq:
Çünki oldun dəyirmançı
Çağır gəlsin dən Koroğlu...

### Yanıltmac əvəzi

Getdik gördük bir şəhərdə,
günü tutqun bir şəhərdə
iki kar, kor kürkü yırtıq,
(dişi mərcan, vədi mırıq)
iynə-zireh kirpi var.
Günü batmış bir şəhərdə
Dişi kar, kor kirpi də
Erkək kar-kor kirpinin
vədini yamamaqdan,
Erkək kor, kor kirpi isə
dişi kar, kor kirpinin
eybini malalayır,
əhalisi bir qəhərdə
olan şəhri laylayır,
Zurnasıyla halaylayır,
paxırları qalaylayır...

### Təqaüd sorağında

Düzdü tale hamıya
bəxt və yaş ayırmış
(yazımıza, yayımıza, qışımıza
yaş ayarmış)
qonşuluqda da yaşarmış
ömrümüzü sağ, sağ sağanlar
Müjdəmizi yetirə,
dümdiyində gətirə bilməyibmiş
qanadı yolunmuş sağsağanlar.
Bəxti nə söy,
Nə də qavğa,
dörd yanımız qarğa-qarğa
qarıldayan sağ ölmüşlər.
çıxmayırlar bizə arxa
Mərəkədən sağ olmuşlar
Mənimdəki doqquz ağca
Yazan tapılmır adıma.
Yox Zeynalabdin Şakəri,
Faytonun çıxıb təkəri.
Bir çatan yoxdu dadıma...

### Məktəb qızlarından birinə

Ürəyimə ilk məhəbbətin
bənövşəsini əkdiyim günlərimdə,
özümü çəkə bilməyib
ayağımı çəkdiyim günlərimdə
Məktəb qızlarının gözündən
üstünə mərhəmət yağana
dönmüşdüm.
Az gedib, üz gedib özümdən
Çöldə tək dağ-dağana
dönmüşdüm.
Və çöldən göz qoyub
Sinifdəki yazıq özümə
Yüz ölçüb bir biçmişdim.
Sabahımı alıb gözümə
Gizli məhəbbət andı içmişdim:
Yazıqlığımı çiynindən atmaq üçün
Ağ atımı tapıb çapacağam
Gözündən təbəssüm
qopartmaq üçün
Gəlib də səni tapacağam.
Ömrü geyib qəhər kimi,
Dərdi ağır yəhər kimi.
Olduqca gec ata bildim.
Özümdə yorğa at kimi.
Məhəbbəti boyat kimi
Məzarına çata bildim.
Son məhəbbətlə üzümü
qara mərmərə çevirdim
Çatdırdım boyat sözümü
Mən səni
Sevirrdim, sevilirdim.

### Mübariz Məsimoğluna

Ağız əyilir düzünə,
Dəmyə deyilir düzünə,
Nə deyək belə düzənə,-
Saatda
Baxtda yatmada
əlim badəyə yetmədə,
əlin badəyə çatmada.
Bizlərə kimlər qarğadı,
Həndəvər qara qarğadı
Birdəki qara darğadı,-
Bizləri kəmənd atmadı
qurtuluş sağlıq gümanı,
birdəki araq dumanı.
Sözümüz şitil, qələmə,
Batmayır başı kələmə,
Başı əyirik qələmə
Çoxları kələm satmada
Boş kəlamla ara qurmaq
Biz kələmlə araq vuraq...

### Dəlisov günlərə

Sıxılanda qəmdən, qəhərdən
Anama dönmüş şəhərdən
Özümü təpdiyim günlər olur.
Azmaq istəyib hərdən
Yapışıb bir kəhərdən,
Özümdən sapdığım günlər olur.
Sözlərlə çimdiklənəndə,
gözlərlə dimdiklənəndə
dumanlarda itmək istəyirəm.
həyat sınağımdan çıxmaq,
ağac tək bitmək istəyirəm
Tikanlı sözləri, gözləri
pişik tək azdırmaq,
yandırmaq naminə,
quşları başıma
qondurmaq naminə.
Belə səhflərdən yəqin
Yaşıllıq ələnər yaşıma.
Belə zəfərdən bəlkə də
ağlım gələr başıma...